# Cırtdan

© Azərbaycan Nağılları. 5 cilddə, 5-ci cild.
Azərbaycan SSR EA Nəşriyyatı, Bakı - 1964

Biri varımış, biri yoxumuş, bir qoca qarı varımış. Bu qarının da bir balaca oğlu varımış. Bu uşaq o qədər balaca imiş ki, buna Cırtdan deyirlərmiş.

Bir gün Cırtdan gördü ki, qonşu uşaqları meşəyə oduna gedirlər. Cırtdan gəlib anasına dedi:
—Ay ana, uşaqlarla oduna mən də gedəcəyəm.

Qarı uşaqları çağırıb, hər birinə bir parça yağ yaxması verib, Cırtdanı onlara tapşırdı. Uşaqlar meşəyə gedib, odun yığanda gördülər ki, Cırtdan odun yığmır. Ona dedilər:
—A Cırtdan, sən niyə odun yığmırsan?
Cırtdan cavab verdi:
—Anam sizə yağ yaxması verdi ki, mənim də odunumu yığasınız.

Uşaqlar bunun da odununu yığdılar. Sonra hər kəs öz odununu dalına şələyib, yola düşmək istəyəndə gördülər ki, Cırtdan oturub baxır. Ona dedilər:
—Ay Cırtdan, sən niyə odununu aparmısan?
Cırtdan cavab verdi:
—Anam sizə yağ yaxması verdi ki, mənim də odunumu aparasınız.
Uşaqlar əlacsız qalıb, bunun da odununu dallarına aldılar. Bir az yol getdikdən sonra gördülər ki, Cırtdan geridə qalıb, ağlayır, dedilər:
—A Cırtdan, niyə ağlayırsan?
Cırtdan cavab verdi:
—Yorulmuşam. Anam sizə yağ yaxması verdi ki, mən yorulanda məni də dalınıza götürəsiniz.

Uşaqlar əlacsız qalıb, bunu da dallarına götürdülər.
Bir xeyli yol getdikdən sonra axşam oldu. Qaranlıq qovuşanda yolu azdılar. Meşədən çıxanda gördülər ki, bir səmtdə it hürür, bir səmtdən işıq gəlir. Onda Cırtdana dedilər:
—Ay Cırtdan, it hürən səmtə gedək, yoxsa işıq gələn səmtə?
Cırtdan cavab verdi:
—İt hürən səmtə getsək, bizi it yeyər. İşıq gələn səmtə gedək, bəlkə yolu tapaq.

Uşaqlar işıq gələn tərəfə gedib, bir divin evinə çıxdılar. Div bunları görəndə sevindi, öz-özünə dedi: “Yaxşı oldu, gecə bunları bir-bir yeyəcəyəm.”

Uşaqlara bir az çörək yedirib, yatırtdı. Gecədən bir az keçəndən sonra, div uşaqların birini yemək istəyirdi. Uşaqların yatıb-yatmamağını bilmək üçün dedi:

—Kim yatıb, kim oyaq?
Bu sözü eşidəndə tez Cırtdan başını qaldırıb dedi:
—Hamı yatıb, Cırtdan oyaq.
Div dedi:
—Cırtdan nə üçün oyaq?
Cırtdan cavab verdi:
—Çünki anası ona hər gecə qayğanaq bişirirdi, yedirib, yatırırdı.

Div qalxıb tez qayğanaq bişirdi, Cırtdana yedirdib yatırdı. Bir qədər keçəndən sonra div yenə soruşdu:
—Kim yatıb, kim oyaq?
Yenə də Cırtdan başını qaldırıb dedi:
—Hamı yatıb, Cırtdan oyaq.
Div dedi:
—Cırtdan nə üçün oyaq?
Cırtdan dedi:
—Çünki hər gecə anası gedib, çaydan ona xəlbirdə su gətirərdi, o içib yatardı.

Bu sözü eşitdikdə div qalxıb, bir xəlbir götürüb, çaya su gətirməyə getdi. Cırtdan da tez yoldaşlarını qaldırıb dedi:
—Bu div bizi yemək istəyir. Qalxın qaçaq.

Uşaqlar tez qaçıb, çaydan keçdilər.
Bu tərəfən div xəlbiri nə qədər suya salıb qaldırdısa, gördü xəlbirdə su qalmır. Axırda təngə gəlib, qayıtmaq istəyirdi, bir də gördü ki, uşaqlar çayın o tərəfindən gedirlər. İstədi sudan keçib, uşaqların dallarınca gedə, sudan keçə bilmədi. Axırda uşaqları səslədi:
—Ay uşaqlar, sudan nə təhər keçdiniz?
Tez Cırtdan cavab verdi:
—Get, bir dənə dəyirman daşı tap, boynuna keçir, özünü suya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandi, gedib bir dəyirman daşı tapıb, boynuna keçirtdi, özünü suya atdı, suda boğulub öldu, uşaqların da canı qurtardı.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: oktyabr, 2003-cü il